Uşaqlar üçün

DƏRS SƏHƏRİ

Hələ səhər açılmamış, günəşdən qabaq,
Yatağından tezcə qalxan uşağa bir bax,
Qıvrım, qara tellərinə çəkdikcə daraq,
O fərəhli gül çöhrəsi necə gözəldir,
Otaq dolu qəhqəhəsi necə gözəldir!

Onun böyük sevincinə ürəyi dardır,
Bu şad günü gözlədiyi yeddi bahardır.
Baxın, baxın, necə şaddır, nə bəxtiyardır,
Kitabları, dəftərləri necə gözəldir,
Məktəblinin ilk səhəri necə gözəldir!

İlk səhəri dedim, bəli, olsun mübarək,
Ürəklərdə xoş arzular açsın gül-çiçək,
Daha xoşbəxt, daha gözəl günlər gələcək,
Kiçik qəlbdə böyük vüqar necə gözəldir,
Məktəblərə gedən yollar necə gözəldir!

Bu yollarla addımladım mən də bir zaman,
O günlərim min yaşasın, çıxmaz yadımdan,
Doğma atam, anam kimi əziz mehriban,
Çox sevdiyim müəllimlər necə gözəldir.
Dərs ilində bu ilk səhər necə gözəldir!

Odur, məktəb qapısında durmuş uşaqlar,
Üzlərində böyük sevincə, böyük fərəh var.
Açılmışdır, bax, laybalay geniş qapılar,
Zəng vurulur, onun səsi necə gözəldir,
Müəllimin dərs deməsi necə gözəldir!

Gedin, gedin məktəblərə, gedin durmadan,
Elm, hünər dövranıdır bizim bu dövran!
Yurdumuzda seyr etdikcə sizi hər insan,
Deyir: xoşbəxt məktəblilər necə gözəldir,
Dərs ilində bu ilk səhər necə gözəldir!

UŞAQLARA

Bir qız uşağından söyləyim sizə
Üç gündür sifəti getmir gözümdən.
Lap illər keçsə də, gəlsək üz-üzə,
O qızı yenə də tanıyaram mən.

Yaşım qırxa çatıb ağarmış başım,
Gözüm də pis görür eynək taxmasam.
Əlimdən tutmayır daha yaddaşım
Bir şeyə on dəfə azı baxmasam.

Amma o qız mənim yadımda qaldı
Nə özü, nə gözü, nə hörükləri...
Demirəm qəlbimi odlara saldı.
Demirəm gəncliyim dönəydi geri.

O qız, qızım yaşda gözəl uşaqdı
Mənə bağışladı birdən aləmi,
Onda ki, yerindən ayağa qalxdı,
Söylədi: – buyurun, əyləşin əmi.

Mənə əmi dedi tutuldum bir az,
İncidim uşağın bu söhbətindən.
Qəlbimdə etdimsə buna etiraz,
Amma dağa döndüm mərifətindən.

Durub bir kənarda səssiz-səmirsiz
Baxdı mənə sarı o xısın-xısın.
Bəlkə də a dostlar, siz bilirsiniz
Adı, familyası nədir o qızın?

Əynində çəhrayı gödək bir donu,
Əlində qəhvəyi kiçik çantası.
Bəlkə dostlarımdan biridir onun –
Sevimli istəkli ana-anası?

O düşdü bir yaxın dayanacaqda
"Sağ ol" deyən kimi başını əydi.
Mənim dalğın-dalğın bu an, bu haqda,
Şeir qoşduğumu hardan biləydi?

Qoy olsun, bilməyim kimindir uşaq!
Bəlkə öz qızımın rəfiqəsidir?
"Buyurun əyləşin" bu səs onun yox,
Elə öz qızımın zərif səsidir?

Qoy bilsin o kiçik, o ədəbli qız,
Qoy bilsin bu sirri bütün uşaqlar.
Zeynal əmiləri bu şeri yalnız,
Gözəl uşaqlara yazmış yadigar.

Bilin incimərəm, min il yaşaram,
Üzük qaşı kimi alın dövrəmi,
Daha da fəxr edib cavanlaşaram,
Mənə mərifətlə desəniz əmi!

CEYRAN QIZIMA

Dostum, bəstəkar
Emin Mahmudovun qızına

Ceyran, dağlar yaraşığı,
Sən evimin bəzəyi.
Yanaqların ay işığı,
Özün mənim ürəyim.
Bircə qızım,
Dirçəl qızım,
Ceyranların ceyranı.

Uzaq olsun ceyranımdan
Ömrün dərdi, bəlası.
Böyü-böyü, dirçəl boy at,
Ay atanın balası!
Bircə qızım
Dirçəl qızım,
Ceyranların ceyranı.

Çəkim sənin keşiyini,
Beşiyində yatanda.
Sənə balam deyəcəyəm
Yüz yaşa da çatanda:
Bircə qızım
Dirçəl qızım,
Ceyranların ceyranı.

OĞLUMA

Bir ay tamam olmamış göz açdığın həyata,
Sifətində gülümsər bir bahar görürəm mən.
Kiçik dodaqlarının deməsiyçün bir "ata!",
Ömrümün yarısını indidən verirəm mən.
Yatırsan mışıl-mışıl ananın qucağında,
Nə səsimi eşidir, nə sözümü qanırsan.
Xırdaca beşiyində – öz isti qundağında
Bəzən haray qoparır, bəzən xumarlanırsan.

Bu adətdir əzəldən, atalar övladına
Ömürlük bir yadigar, bir miras qalsın deyə,
Yoxsul bir daxma qoymuş balasının adına,
Dövlətli kaşanələr tikdirmişdir hədiyyə.

Görürəm ki, yatırsan yuxun baldan dadlıdır,
Duymayırsan atanın bu gecəki halını,
Onun şair xəyalı indi quş qanadlıdır,
O indidən düşünür oğlunun iqbalını.

Yəqin ki, mən də bir gün karvanımı çəkərək
Köçəcəyəm dünyadan, yumaraq gözlərimi,
Atan səni etsə də, darıxma, vədəsiz tərk,
Mən sənincün qoyuram öz ürək sözlərimi.

SİZİN SƏSİNİZ

İki ay dalbadal günlər ötüşdü,
Qapımı əlimlə açdım, bağladım.
Hər dəfə səsiniz yadıma düşdü,
Kandarda bir qədər ayaq saxladım.

Gözümdə intizar, əlimdə açar,
Yenə də qapımın zəngini basdım.
İnsanın qəribə adətləri var,
Kimsəsiz mənzilə qulaq da asdım.

Dedim səsinizi eşidim barı,
Yenə gülüş görüm dodağınızda.
Amma məyus-məyus burdum açarı,
Səsiniz gəlmədi bircə ağız da.

İsti yay günündə qurudu tərim,
Otaq bumbuz oldu, sandım ki, qışdır.
İlk dəfə görmədi sizi gözlərim,
Ürəyim heç belə sıxılmamışdı.

Hanı əvvəlki səs, hanı qalmaqal,
Hanı uşaqların bəs harayları?
Sandım, divarlar da lal kəsilib, lal,
Dedim, qurtaraydı bu yay ayları!

Gəldim rahatlanım, uzanım bir az,
Yumdum gözlərimi, yuxum gəlmədi.
Düşündüm, heç belə sakitlik olmaz,
Amma ki, ürəyim bir dincəlmədi.

Durdum şer yazım tək otaqda mən,
(Hər zaman səs-küydən gileylənərdim)
Gördüm şairlik də gəlmir əlimdən,
İnanın, desəm ki, çoxaldı dərdim.

Siz məndən uzaqda iki ay tamam,
Yeriniz yamyaşıl yaylaqlar oldu.
Gözümdə intizar, yaman darıxdım,
Sizsiz gen otaqlar mənə dar oldu.

Qayıdıb gəldiniz, balalar, geri,
Ürəyim qayıdıb yerinə düşdü.
Siz doğma evimdən gedəndən bəri,
Dedim aylar deyil, illər ötüşdü.

Oxuyun, şadlanın, danışın, gülün,
Heç əskik olmasın səsiniz evdən.
Sizin səsinizlə keçən hər günü
Sakit yüz ilə də dəyişmərəm mən!

Xoş gəlib yaylaqdan bütün uşaqlar,
Öz Əlim, İlqarım, Gülərim mənim!
Qəlbimdə çox şirin bir diləyim var.
Heç sizsiz olmasın günlərim mənim!

ƏLİ GÜLSÜN!

Oğlumun Əlidir adı.
Evimizin ilk övladı
Ərköyünmü deyim,
Dəcəlmi deyim,
Şıltaqmı deyim,
Adi bir uşaqmı deyim?
Heç biri deyil.
Bəzən elə bil
Yekə kişidir;

Nə desən eşidir,
Nə desən edir,
Qulluğa gedir,
Bəzən başından aşır
Şıltağı,
Tanımaq olmur
Daha uşağı.
Bəzən görürsən
Həlim olur
Lap quzu kimi.
Evin oğlu deyil,
Qızı kimi.
Bir küncdə əyləşir,
Oyuncaqlarıyla əlləşir.
Nə qulluğa getmir,
Nə söz eşitmir,
Nə kişi kimi
Kişi olmur,
Nə qız kimi qız.
Tutması tutur,
Hər şeyi unudur.
Kəsir, doğrayır,
Tikir, biçir.
Beləcə saatlar keçir.
Deyirəm ağıllı-başlı,
Altı yaşlı
Uşaqdır Əli!
Xoşdur mənə
Hər işi, əməli.
Qoy keyfi gələndə
Ərköyün olsun!
Niyə olmasın axı?
Qoy keyfi gələndə
Atılsın düşsün
Yanaqları pörtüşsün!

Niyə pörtüşməsin axı?
Qoy keyfi gələndə
Kəssin, doğrasın, biçsin,
Lap saatlar keçsin!
Niyə keçməsin axı?
Qoy keyfi gələndə
Desin, gülsün,
Ağzından gül tökülsün;
Niyə tökülməsin axı?
Nə qədər mən varam,
Anası var.
Onun öz aləmi,
Onun öz dünyası var!
İstərəm gülüşlərindən
Dan sökülsün,
Ürəyimə sinəm dolusu
Fərəh tökülsün,
Əlimin dodaqları
Gülsün,
Əli gülsün.

TAPMACALAR

Çöldə, düzdə qaçaram,
Hər qapını açaram.
İstəsəm ağacları
Kökündən qopararam.
İstədiyim tərəfə
Adam da apararam.
Adımı tapın görək
Söyləyin nəyəm?.. (*külək*)

Əvəllər yaşıl olur
Sonra qızıl tək sarı.
İnsanlar deyir ona
Xalqın dövləti, varı,
Nə suyu vardır onun
Nə də üzən gəmisi,
Uşaqlar onun adı
Nədir? (*taxıl zəmisi*)

Məni sevən hər kəsin
İşi çox asan olur.
O, hər işi bacaran,
Yaxşı bir insan olur.
Uşaqların çoxusu
Adımı bilir əlbət,
Tanımayan var isə
Tapsın adımı... (*zəhmət*)

Məni sevən hər insan
Çatır şöhrətə, ada
Mənim köməyimlə o,
Xoşbəxt olur dünyada.
Ağıllı adamların
Dostuyam həmişəlik
Axtarın, tapın indi
Adımı, nədir?.. (*bilik*)

Boynum uzundur,
Bədənim gödək.
Gözlərim iri,
Qulaqlarım şək.
Görübsünüzmü?
Məni bir dəfə?
Tapın adımı
Nədir? (*zürafə*)

Nə ağzı var, nə dili,
Amma bilir hər dili.
İstəyirsən danışdır
O hamıya tanışdır.
Ağzında çox mahnısı,
Çoxlu sözü var onun,
İki dənə düyməsi,
Bircə gözü var onun. (*radio*)

Qaldırdığım yük,
Özümdən böyük,
Yerin altında
Yaşayaram mən,
Çör-çöp tapan tək,
Ora sevincək
Daşıyaram mən. (*qarışqa*)

Yanağım yamyaşıldır,
Dodağım qıpqırmızı.
Kim sevməz bostandakı
Deyin, şirin. (*qarpızı*)

Havada süzər,
Quruda gəzər,
Su görsə üzər,
Tapınız görək,
Bu nədir?.. (*ördək*)

Qanadları var, –
Ala-bəzəkdir.
Oylağı güldür,
Çəmən-çiçəkdir.
Amma, nədənsə
Ömrü gödəkdir.
Kim tapar nədir?
O... (*kəpənəkdir*)

Güldən, çiçəkdən
Xoşum gəlir çox,
İşləməkdə heç,
Bərabərim yox.
Bütün il boyu
Yığdığım varı,
İnsanlar ilə,
Bölürəm yarı.
Kim deyər mənim
Adımı?.. (*arı*)

Dağlarında bahar, yaz,
Əriməyən qar olur.
Bağlarında min cürə
Meyvə olur, bar olur
Çoxdur çayı, çəltiyi,
Portağalı, limonu.
Uşaqlar, fikirləşin,
Görək kim tapar onu? (*Lənkəran*)

Yolunda dağ, dərə var,
Çoxluca mənzərə var.
Maşınlar düşür yola,
Hey burula-burula,
Böyük şairlər verib
Xalqımıza bu şəhər,
Onun adını görək
Kim hamıdan tez deyər? (*Şamaxı*)

Bura nə gəmi üzür,
Nədə ki, qatar gedir.
Dağları aşa-aşa
Saysız maşınlar gedir.
Onun gözəl nemətі
İncə, zərif ipəkdir.
Bu şəhərin ipəyi
Azərbaycanda təkdir.
Onun adını görək
Kim birinci deyəcək? (*Nuxa*)

Arazın sahilində,
Bir şəhər var uşaqlar,
Adı, sizə şübhəsiz
Lap çoxdan tanış olar.
Buranın daş duzunun
Qiyməti çox böyükdür.
Bütün vətənimizdə
Şöhrəti çox böyükdür.
Görək kim tez tapacaq
Fikirləşiniz ancaq. (*Naxçıvan*)

Azərbaycanda
Var iki dəniz:
Biri Xəzərdir.
Biri? Bilsəniz?.. (*Mingəçevir dənizi*)

Şəhər gözəldir,
Şəhər təmizdir.
Bu bizim doğma
Şəhərimizdir
Qazanmışdır ad.
Boru, saf polad
Verir hər yana.
Respublikamız
Azərbaycana. (*Sumqayıt*)

Poemalar

MƏNİ BAĞIŞLAYIN...

Dolduqca insan yaşa,
Keçdikcə illər, aylar,
Sanki ötən günləri
Onu səslər, haraylar.

Yaxşı işi yad eylər
İnsan, üzü ağ olar.
Yaman işlər qövr edib,
Ürəyində dağ olar.

Yaman işlər...
Mənim də
Olub yaxşım, yamanım.
Bağışlayın siz məni,
Sizə gəlir gümanım;
Sapandla daş atdığım,
Yuxudan oyatdığım,
Döşünü qanatdığım,
Nəğməli, səsli quşlar,
Gözəl nəfəsli quşlar,
Bağışlayın siz məni!

Ölkəmi oymaq-oymaq
Dolaşmışam, gəzmişəm.
Çəmənliyə düşəndə,
Göy otları əzmişəm.
Çiçəkləri, gülləri,
Əl uzadıb üzmüşəm.
Sizdən bir xahişim var.

Ey üzdüyüm çiçəklər,
Tapdadığım göy otlar,
Bağışlayın siz məni!

Bahar üzə güləndə,
Çölə, düzə güləndə,
Hər yan ürək açanda,
Kəpənəklər uçanda,
Çox qovub incitmişəm
Tutub, candan etmişəm.
Ey xallı kəpənəklər,
Zavallı kəpənəklər,
Bağışlayın siz məni!

Müəllimim çox olmuş,
Hamısını sevmişəm.
İndi də bax, onları,
Yad eləməkdir peşəm...

Rast gəlirəm ara-bir
Bəzisinə küçədə.
Bəzisi güclə gəzir,
Qocalıbdır necə də...

Qoluna da girirəm
Keçən zaman küçəni,
Deyir – oğul, çox sağ ol,
Diyən incitdim səni.

Gülümsəyir ötəri
Əsir əli, ayağı.
Yenə də qarşısında
Mən bir uşaq sayağı
Dayanıram, dururam,
Boynumu da bururam.